

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 47-48 (7568-7569) 1933-cü ildən nəşr olunur Cümə, 25 oktyabr 2019-cu il. news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***18 oktyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Respublikasının sabiq Prezidenti Raymonds Veyonislə görüşüb.

* * *

Ölkə Prezidenti İlham Əliyev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul edib.

***17 oktyabr***

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib. Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

***16 oktyabr***

Dövlət başçısı İlham Əliyev Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***15 oktyabr***

Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib. Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib

***14 oktyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının birinci Prezidenti-elbası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayevlə görüşüb.

* * *

Prezident İlham Əliyev Macarıstanın Baş Naziri Viktor Orban ilə görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi üçün Macarıstanın göstərdiyi dəstək yüksək qiymətləndirilib, iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Ölkə başçısı İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

* * *

Dövlət başçısı İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin görüşü olub.

## İlham ƏLİYEV:

*Əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir.*

# Azərbaycan Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib



Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə 2019-cu ilin 9 ayının sosial-iqtisadi yekunları və 2020-ci ilin dövlət və icmal büdcəsi layihələri müzakirə edilib.

Prezident İlham Əliyev müşavirədə çıxış edib.

Müzakirələrdə Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Əli Əsədov, Azərbaycan Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, Maliyyə naziri Samir Şərifov, İqtisadiyyat naziri Şahin Mustafayev, Vergilər naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov çıxış ediblər.

# Konstitusiyamız dövlətçiliyimizin hüquqi əsasıdır

***Cəmiyyət həyatının bütün sferalarının hüquqi nizamlanmasında yer tutan sənədlər arasında ən alisi konstitusiyadır. Bu sənəd dövlətin mahiyyətini izah edir, qanunvericilik, icra və məhkəmə orqanlarının fuknsiyalarını əks etdirir, cəmiyyət şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyənləşdirir. Elə buna görə də konstitusiya hər bir sivil ölkənin əsas qanunu kimi ali hüquqi qüvvəyə malikdir.***

Konstitusiya özünün ali hüququ xüsusiyyətləri ilə hər bir xalqın və dövlətin həyatında mühüm rol oynayır. Odur ki, konstitusiyanın qəbul edildiyi gün hər bir ölkədə xüsusi qeyd edilir. Ölkəmizdə də belədir. Noyabrın 12-si müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbul olunduğu gündür.

Ötən əsrin 90-cı illərinin əvvələrində xalqımız yaranmış tarixi şansdan istifadə edərək iyirminci yüzillikdə ikinci dəfə müstəqilliyinə qovuşdu. Belə ki, 1991-ci ilin oktyabrın ayının 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında "Konstitusiya Aktı" qəbul olundu. Həmin sənəddə tezliklə müstəqil Azərbaycanın Konstitusiyasının hazırlanıb qəbul olunması nəzərdə tutulurdu.

1993-cü ilin iyun ayında xalqın təkidli tələblərindən sonra hakimiyyətə gələn ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının tezliklə hazırlanması və qəbul edilməsini gündəmə gətirdi.

1994-cü ilin iyul ayında Milli Məclisin iclasında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə konstitusiya layihəsinin hazırlanmasına məsul olan komissiya yaradıldı. Heydər Əliyev xalqın rəyini öyrənmək və nəzərə almaq üçün dəfələrlə konstitusiya layihəsinin açıq müzakirəsini təşkil etdi.

Bu ali sənədin müasir dəyərləri özündə əks etdirməsini və yetkin formada qəbul olunmasını təmin etmək üçün gərgin əmək sərf edən ulu öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşmışdı.

Bütün bu hazırlıqların və müzakirələrin nəticəsi olaraq 1995-

**(Ardı 3-cü səhifədə).**